Səh. 2 Abuliya – Azər Musaoğlu
Səh. 5 Çoxuşaqlı arzulardan biruşaqlı arzulara – Afiq Muxtaroğlu
Səh. 5 Fırçadan kətana hopan dünya – Esmira Ələkbərli
Səh. 6 Eyni dövlətin fərqli şərtlər altında böyüdülən gəncləri – Aytən Fətullayeva
Səh. 3 Danışmaq – Hacı Bəkiroğlu
Səh. 4 DİREKTOR MÜƏLLİMİN İCAZƏSİ OLMADAN HANSI HALDA MÜQAVİLƏDƏ DƏYİŞİKLİK EDƏ BİLƏR VƏ HANSI HALDA DƏYİŞİKLİKLƏR YAZILI ŞƏKİLDƏ HƏYATA KEÇİRİLMƏLİDİR?
Səh. 7 “Koroğlu”nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUL 2023-CÜ İL
№ 013 (184)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BAŞ NAZİR: GÜRCÜSTAN Aİ ÜZVLÜYÜNƏ NAMİZƏD STATUSU ALMAQ ÜÇÜN BÜTÜN GÜCÜ İLƏ ÇALIŞIR



Gürcüstan hazırda böyük geosiyasi çağırışlar dövrünü yaşayır. Bu mərhələni müdriklik və səbirlə keçmək, ayıq-sayıq olmaq, uzaqgörənliklə hərəkət etmək, sülhün qorunmasının qayğısına qalmaq bizim borcumuzdur. Eyni zamanda, əhalimizin gözləntilərini qarşılamaq üçün ölkəmizi inkişaf etdirməliyik.

Bunu Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Frankofoniya Parlament Assambleyasının Tbilisidə keçirilən 48-ci sessiyasındakı çıxışı zamanı deyib.

Baş nazirin sözlərinə görə, Gürcüstan hökuməti hazırkı mürəkkəb və çətin vəziyyətdən çıxış yolu tapmaq, Avropa İttifaqına namizəd statusu almaq üçün bütün gücü ilə çalışır.

Qeyd edək ki, Gürcüstan Frankofoniya Parlament Assambleyasında fəxri qonaq statusuna malikdir.

## SALOME ZURABİŞVİLİ: GÜRCÜSTAN HAKİMİYYƏTİ RUSİYALI İNVESTORLARA NƏZARƏTİ GÜCLƏNDİRMƏLİDİR

Gürcüstan hakimiyyəti rusiyalı investorlara nəzarəti gücləndirməlidir. Bunu Gürcüstan Prezidenti Salome Zurabişvili deyib.



O qeyd edib ki, rusiyalı investorlara Gürcüstan vətəndaşlığının verilməsinin əleyhinədir.

*“Rus biznes investorları üzərində nəzarət olmalıdır, Rusiyadan olan ruslar, kiprli ruslar, İsraildən olan ruslar. Mən Rusiyadan olan investorlara vətəndaşlıq verilməsini qəti şəkildə əngəlləyirəm. Gürcüstan hakimiyyəti Rusiya investorlarına nəzarəti gücləndirməlidir”,* – deyə Salome Zurabişvili qeyd edib.

Prezident həmçinin bildirib ki, belə investorların ölkədə işləməsi üçün yaşayış icazəsi lazımdır.

## PARLAMENT PREZİDENTİN QANUN LAYİHƏSİNƏ QOYDUĞU VETONU LƏĞV EDİB



Gürcüstan parlamenti Prezident Salome Zurabişvilinin Mərkəzi Seçki Komissiyası (MSK) sədrinin və üzvlərinin müəyyənləşdirilməsi qaydalarına dəyişikliyi nəzərdə tutan qanun layihəsinə qoyduğu vetonu ləğv edib.

Parlamentin iyulun 3-də keçirilən növbədənkənar sessiyasında əvvəlcə Prezidentin təklif etdiyi qanun layihəsi səsə qoyulsa da qəbul edilməyib. Daha sonra isə parlamentin üç oxunuşda qəbul etdiyi, lakin Prezidentin veto qoyduğu qanun layihəsi səsə qoyulub. Hakim partiyadan olan 78 deputatın dəstəyi ilə layihə yenidən qəbul olunub.

Qanun layihəsinə edilən düzəlişə əsasən MSK sədrinin və üzvlərinin müəyyənləşdirilməsi üçün müsabiqənin elan edilməsi, həmçinin müsabiqə komissiyasının yaradılması vəzifələri Prezidentdən alınaraq parlamentin spikerinə verilib.

Qeyd edək ki, Prezident Salome Zurabişvili iyunun 26-da yaydığı bəyanatında yeni qanun layihəsinin MSK sədri və üzvlərinin müəyyənləşdirilməsində birpartiyalı qərar anlamına gələcəyini, bu səbəbdən də onu veto etdiyini bildirmişdi.

## GÜRCÜSTAN-RUSİYA DANIŞIQLARININ 58-Cİ RAUNDU NƏTİCƏSİZ BAŞA ÇATIB

Gürcüstan ilə Rusiya arasında Cenevrə danışıqlarının növbəti 58-ci raundu nəticəsiz başa çatıb. Bu barədə Gürcüstan xarici işlər nazirinin müavini Laşa Darsalia bildirib. Onun sözlərinə görə, Rusiya nümayəndə heyəti danışıqların bu raundunda destruktiv mövqe nümayiş etdirib.

Gürcüstan işğal altındakı ərazilərindən olan qaçqınların öz doğma yurd-yuvalarına qaytarılması məsələsinin Cenevrə danışıqlarının gündəliyinə daxil edilməsi tələbini irəli sürüb. Lakin Rusiya nümayəndə heyəti bununla razılaşmayaraq müzakirə masasını vaxtından əvvəl tərk edib.



**“Baxmayaraq ki, qaçqınların məsələsi diqqət mərkəzində olan bir mövzudur, Rusiya Federasiyası bu məsələnin müzakirəsinə başlamağa dair heç bir işarə vermir. Təəssüf ki, Rusiya tərəfi bu raundda da destruktiv mövqe tutdu”,** – deyə L.Darsalia bildirib.



# ABULİYA

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

“Güc fiziki vəziyyətdən yox, boyun əyməyən iradədən gəlir” (ifadə Mahatma Qandinindir). Bəlkə də elə bu GÜCdən qorxaraq insanları parnik şitili kimi yetişdirən kustar “təlimlər”, “sistemlər” mövcuddur. Bağçalardan məktəblərə, məktəblərdən universitetlərə (M.Qorkinin “universitetləri” xaric), universitetlərdən institutlara boyun əyməyən iradədən yaranan gücü fiziki gücə çevirməklə onu daha asan məğlub edilən, idarə olunan hala gətirməklə məşğuldurlar. Axı fiziki gücü fizika qanunları ilə idarə və məğlub etmək asandır, iradə üçün isə bu qanunlar keçərli deyil...

Tibbdə abuliya deyilən bir xəstəlik var. Abuliya – iradəsizlik, patoloji iradə zəifliyidir, yəni aktiv həyat tərzinin bütün növlərinə qarşı marağın itməsidir. Və bu xəstəlik vaxtında dəf edilməzsə, xəstə, demək olar ki, fizioloji tələbatlarını yerinə yetirə və psixoloji inkişaf dərəcəsini qoruyub saxlaya bilmir, bunun üçün ona daima kiminsə (başqalarının) yardım etməsi lazım gəlir. İraq olsun!

Məlumdur ki, iradə gənclik dövründə inkişaf edir, möhkəmlənir. Bu gün gəclərə baxanda, onların marağı, fəaliyyəti (fəaliyyətsizliyi), həyat tərzi ilə maraqlananda, görürsən ki, gənclik abuliyaya tutulub, daha doğrusu kənardan yoluxub. Və bu abuliyaya yoluxmuş gənclər gələcəyin avaragor, zırrama, çayxanalarda papağı günə yandıran qocalar ordusu deməkdir. Bu insanları idarə etmək asan olduğu üçün onlara dəyib-toxunan da yoxdur. Sirr deyil ki, iradəsi zəif olan adamın ağlı (əgər varsa) başqasının quluna, qulluqçusuna çevrilir. Bu gəncləri məktəblərə, dərnəklərə, kolleclərə, universitetlərə göndərmək əvəzinə çayxanalara, qumarxanalara və sair xanalara doldururlar. Demək olar ki, hər bölgədə mütləq bir, ya iki totalizator, qumarxana var, amma hələ də uşaq baxçası yoxdur, gənclərin vaxtlarını səmərəli keçirmələri üçün heç bir dərnək yoxdur...

Qumarxanası məktəbindən şəraitli, gözəl, isti, müasir texnologiyalarla təchiz olunmuş ölkənin balası, əlbəttə, tövləyə oxşayan məktəbdə əlləri soyuqdan donaraq imla yazmaq əvəzinə isti qumarxanada qəhvə içə-içə “variant” yazacaq; müəllimini totalizatorda görüb onun “yoluyla gedəcək”. Axı ağlını, əzələlərini işlətmədən isti, rahat yerdə oturub “nəyəsə” nail olmaq da mümkündür. Keyfiyyətsiz təhsilin məktəbdə saxlaya bilmədiyi, universitetə çağıra bilmədiyi gənclik çayxanalara, qumarxanalara axın edəcək. Məktəbdə müəllim avtoritet olmayanda şagird avtoriteti həbsxanalarda axtarmağa başlayacaq və sair...

Tolstoy deyir ki, “inam vicdanın iradə ilə razılaşmasıdır”. İradəsi zəif olan və ya ümumiyyətlə olmayanların vicdanları (əgər o da varsa) məcbur başqalarının iradəsi ilə sövdələşməli olur və nəticədə inamı da özününkü olmur, özgəninki olur. Ən qorxulusu da elə vicdanı və iradəsi olmayanların korafəhm inamıdır və ya inamsızlığıdır. Bəlkə də abuliya özünü elə burada göstərməyə başlayır...

Bu gün daha çox gənc nəsil arasında özünü göstərən iradəsizlik artıq patologiyaya çevrilir, psixoloji hal alır. İradəsizlər kütləsi yaranır ki, müxtəlif siyasi və dini qurumların ideologiyaları üçün fəaliyyət və ya fəaliyyətsizlik alətinə çevrilirlər. Məsələyə zərrəbinlə baxdıqda isə hətta iradəlilərin iradəsini qırmaq, sındırmaq, yəni təzyiq və qorxutmaqla yolundan, mübarizəsindən çəkindirmək, məqsədindən döndərmək üçün çalışan, dəridən-qabıqdan çıxanların olduğunu görərik, yəni bu gün boyun əyməyən iradədənsə boynubükük iradə “yetişdirmək” idarə edənlər üçün daha məqsədəuyğundur.

Yeri gəlmişkən, idarə ilə iradə sözlərindəki hərflərin hamısı eynidir, sadəcə “d” ilə “r” hərflərinin yeri fərqlidir. İkisi də ərəb mənşəli sözdür. Biri rəhbərlik etmək, digəri dözüm deməkdir. İkisindən birini seçmək iradəsi isə sizindir.

## MİXEİL SAAKAŞVİLİNİN MÜALİCƏSİ ÜÇÜN RƏSMİ ŞƏXLƏR GÜRCÜSTAN HAKİMİYYƏTİNƏ MÜRACİƏTLƏR ÜNVANLAYIBLAR, EKS PREZİDENTİ MÜAYİNƏ ETMƏK ÜÇÜN POLŞALI HƏKİMLƏR GÜRCÜSTANA GƏLİBLƏR



Gürcüstanın sabiq prezidenti, hazırda həbsdə olan Mixeil Saakaşvilini Polşadan Tbilisiyə gələn 5 nəfərlik həkimlər qrupu müayinə edəcək.

Polşanın Baş naziri Mateuş Moravetski Mixeil Saakaşvilini müayinə etmək üçün Tbilisiyə xüsusi həkimlər göndərib. Gürcüstan hökuməti Avropa İttifaqı rəsmiləri ilə aparılan danışıqlardan sonra polşalı həkimlərin Mixeil Saakaşvilini müayinə etmək üçün xəstəxanaya buraxılmasına icazə verib.

Ukrayna Ali Radasında isə Mixeil Saakaşvilinin humanitar əfvi və müalicə üçün xaricə köçürülməsinə çağırış edən müraciət layihəsi qeydə alınıb.

Müraciəti hakim “Xalqın xidmətçisi”partiyasının lideri David Araxamia da daxil olmaqla ümumilikdə 87 deputat imzalayıb.

Sənəddə Gürcüstan Prezidentinə, həmçinin Avropa Parlamentinin üzvlərinə, Aİ-yə üzv ölkələrin parlament üzvlərinə, ATƏT Parlament Assambleyasına və NATO-nun Parlament Assambleyasına müraciət yer alıb.

Qeyd olunub ki, təşəbbüsün məqsədi Gürcüstan Prezidenti Salome Zurbaşvili tərəfindən Ukrayna vətəndaşı olan sabiq Prezident Mixeil Saakaşvilinin səhhəti nəzərə alınmaqla humanitar əfvinə nail olmaqdır.

Müraciətdə həmçinin Aİ-yə üzv ölkələrin parlamentarilərinə Prezident Salome Zurabişvilinin müvafiq qərarı qəbul etməsinin təmin edilməsi məqsədilə zəruri qərar və qətnamələri qəbul etməyə çağırış edilib.

Qeyd edək ki, bundan öncə də Moldova Prezidenti Maya Sandu və Ukrayna Prezident Ofisi sabiq Prezident Mixeil Saakaşvili ilə bağlı Gürcüstan hökumətinə çağırış edib.

Prezident Sandu Saakaşvilinin həbsdə olduğu müddətdə səhhətinin kəskin şəkildə pisləşdiyini vurğulayıb.

“Gürcüstan hakimiyyətini onun sağlamlığına əhəmiyyət verməyə və təcili olaraq xaricdə onun həyatı üçün vacib olan müalicəni təmin etməyə çağırıram”, – deyə Moldova Prezidenti tvitter hesabında yazıb.

Ukrayna Prezident Ofisinin rəhbəri Andriy Yermak isə Gürcüstan hökumətinə çağırış edərək tvitterdə yazıb: “Mixeil Saakaşvilini qanunsuz həbsdən azad edin! Saakaşvili həqiqət, ədalət və demokratiya uğrunda mübarizənin simvoludur. Onun tutulması və dəmir barmaqlıqlar arxasında saxlanması insan haqlarının pozulmasıdır”.

Həmçinin Avropa Parlamentinin deputatları M.Saakaşvilinin müalicə edilməsi ilə bağlı Aİ ölkələrindən birinə köçürülməsi üçün Gürcüstan Prezidentinə, Baş nazirə və ölkə parlamentinin sədrinə müraciət ünvanlayıblar. Müraciəti Avropa Parlamentinin 44 deputatı imzalayıb.

Xatırladaq ki, Mixeil Saakaşvili 2013-cü ildə Gürcüstanı tərk edib, bundan sonra ölkədə ona qarşı 4 cinayət işi açılıb. 2021-ci ilin oktyabrında gizli şəkildə Gürcüstana gələn Saakaşvili hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. 2022-ci ilin mayında səhhəti pisləşdiyi üçün Tbilisidəki “Vivamed” özəl klinikasına aparılıb və bu günə kimi orada saxlanılır.

## SENTYABRDAN AVTOMOBİLLƏRİN ATMOSFERİ ÇİRKLƏNDİRMƏSİNƏ NƏZARƏT OLUNACAQ



Gürcüstan parlamenti zərərli maddələrlə atmosferi çirkləndirən avtomobillərlə bağlı yeni qanun layihəsini üçüncü və yekun oxunuşda qəbul edilib.

Sentyabrın 4-dən etibarən avtomobillərdə atmosferə atılan zərərli maddələrin tərkibinə xüsusi qurğularla nəzarət ediləcək.

Avtomobilin havaya buraxdığı zərərli maddələrin miqdarı normadan çox olarsa fiziki şəxs 100 lari, hüquqi şəxs isə 500 lari məbləğində cərimələnəcək. Təkrar qayda pozuntusuna görə fiziki şəxslər 300 lari, hüquqi şəxslər isə 1500 lari məbləğində cərimələnəcəklər. Üçüncü qayda pozuntusu zamanı fiziki şəxslər üçün 600 lari, hüquqi şəxslər üçün isə 3000 lari məbləğində cərimə tətbiq ediləcək.

Qeyd edək ki, birinci etapda nəzarət Tbilisi, Batumi, Kutaisi və Rustavidə aparılacaq. Pilot rejim başa çatdıqdan sonra avtomobillərin yoxlanılması daha çox şəhər və bələdiyyələrdə də həyata keçiriləcək.

## PARLAMENT SƏDRİ: GÜRCÜSTAN 2008-Cİ İLDƏ NATO ÜZVÜ OLSAYDI, NƏ MÜHARİBƏ, NƏ DƏ RUSİYA İŞĞALI OLARDI



Gürcüstanın bu tarixi məqamda sırf fərqli siyasi zövqlərə görə NATO-dan uzaqlaşdırılması gələcək üçün bağışlanmayacaq səhvdir. Bunu Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili məqaləsində bildirib.

Onun sözlərinə görə, gürcüləri birləşdirən siyasi məqsədlərdən birincisi Gürcüstanın NATO-ya üzvlüyü ilə bağlı məsələdir: "Ancaq bu, təəssüf ki, təkcə bizdən asılı deyil. 2002-ci ilin noyabrında yenicə Alyansa üzv olmaq üçün müraciət edən və NATO-nun "açıq qapı" siyasətini eşidən prezident Eduard Şevardnadze məşhur zarafatını etmişdi: "Lütfən, bizi açıq qapıda uzun müddət saxlamayın, üşüyə bilərik". Şevardnadzenin 20 il əvvəl NATO səlahiyyətlilərinə yarı yumoristik xəbərdarlığında uzaqgörənlik var idi. Alyans 2008-ci ilin aprelində Buxarest sammitində Gürcüstanın üzv olacağına söz versə belə, o vaxtdan bəri NATO-nun yanaşmasında keyfiyyətcə çox az şey dəyişdi. Son onillikdə Gürcüstan avtoritar idarəetmə sistemini geridə qoyaraq demokratik təsisatlarını əsaslı şəkildə dəyişdirdi və Alyans sammitdə sammitdə üzvlük vədini təkrarladıqca Gürcüstan müdafiə qabiliyyətini NATO standartlarına uyğunlaşdırdı", – Papuaşvili qeyd edib.

Spiker vurğulayıb ki, Gürcüstan-NATO siyasi və hərbi əməkdaşlığı çox inkişaf etsə də və Gürcüstan Alyansdan əhəmiyyətli yardım alsa da, yenə də keyfiyyət baxımından NATO-nun Gürcüstanın üzvlüyü ilə bağlı kritik məsələdəki mövqeyində az dəyişiklik olub.

Gürcüstan parlamentinin spikeri yazısında Gürcüstanın üzvlük istiqamətində irəliləyişi ilə bağlı skeptiklər tərəfindən irəli sürülən şübhələr barədə də qeyd edib və deyib ki, bu şübhələr aradan qaldırılıb: "Birincisi etimad və öhdəlik haqqında idi və Gürcüstan bu sınaqdan uğurla keçdi. Son üç onillikdə, Sülh Naminə Tərəfdaşlıq təşəbbüsünün bir hissəsi olduqdan sonra Gürcüstan, şübhəsiz ki, Avro-Atlantika ailəsinin dəyərlərinə və siyasətlərinə hərtərəfli sadiq olduğunu sübut edib, böyük səylər göstərib çətinliklər və ekzistensial təhlükələrə baxmayaraq, heç vaxt Qərb yolundan dönməyib. Nümunə üçün qeyd edək ki, Əfqanıstandakı missiyada öz həyatını qurban verən gürcü əsgərləri NATO üzvü olan ölkələrin böyük əksəriyyətinin hər bir ölkəyə düşən şəxsi heyətindən çoxdur. Və siyasi baxımdan onu demək kifayətdir ki, "Gürcü Arzusu" hökuməti gələcəkdə heç bir, hətta ən skeptik siyasi qüvvə tərəfindən asanlıqla dəyişdirilə bilməyən Avro-Atlantik inteqrasiya bəndini Konstitusiyaya daxil edib".

Papuaşvilinin sözlərinə görə, Gürcüstanın üzvlüklə bağlı vədinə ikinci əks-arqument demokratik etimadnamələrin olmaması ilə bağlı idi və bununla son on ildə "Gürcü Arzusu" hökuməti üz-üzə gəlib: "Hər bir nüfuzlu beynəlxalq reytinq bu iddiaya qarşı kifayət qədər dəlil verir. Biz başa düşürük ki, demokratiya hədəf deyil, yoldur, səyahətdir. Gürcüstan demokratik dövlət kimi on il əvvəlki vəziyyətlə müqayisədə tanınmaz hala düşüb. Nəzarət və tarazlıq sistemində islahatlardan başlayaraq, Avropa idarəetmə standartlarının tətbiqinə qədər Gürcüstana Avropa perspektivini qazanmağa və ədalətli şəkildə Aİ-yə namizəd statusuna uyğun gəlməyə imkan verib. Üstəlik, indiyə qədər Gürcüstan qanunun aliliyi və idarəçilik standartları və ictimai sektorun dürüstlüyü ilə bağlı bəzi NATO üzv ölkələrindən daha yaxşı demokratik etimadnaməyə malikdir".

Gürcüstan parlamentinin spikeri deyib ki, üçüncü arqument onun ölkəsinin müdafiə qabiliyyətindəki keçmiş çatışmazlıqlarla bağlı olub ki, bu da aradan qaldırılıb: "Əslində, Gürcüstanın müdafiə islahatları və imkanları ilə bağlı heç bir sual qalmayıb, çünki NATO sənədlərində Gürcüstanın NATO ilə münasibətlərinin "üzvlüyə hazırlaşmaq üçün bütün praktiki alətləri ehtiva etdiyi" açıq şəkildə göstərilir. Dördüncü əks arqument Gürcüstanın NATO-ya qəbulunun regional sabitliyə töhfə verəcəyi, yoxsa əksinə, Rusiyanı "qıcıqlandıracağı" və Rusiyanın Abxaziyanı və Tsxinval bölgəsini işğal etməsini nəzərə alsaq, onu daha döyüşkən və təcavüzə meyilli edəcək və Gürcüstanın ərazi bütövlüyü şanslarına daha çox xələl gətirəcəkmi? İndi əminliklə deyə bilərik ki, yalnız qətiyyətli cavab Rusiyanın Ukraynaya təcavüzü kimi fəlakətlərin qarşısını ala bilər. Sülh və sabitliyin yeganə sahəsi NATO-nun Beşinci Maddəsi ilə qorunan ərazidir. Başqa hər yerdə potensial müharibə və qan tökülmə riskləri olan sahələrdir. Gürcüstan 2008-ci ildə artıq NATO üzvü olsaydı, nə müharibə, nə də Rusiya işğalı olardı. Gürcüstanın rədd edilməsinin Ukraynada fəlakətə səbəb olma ehtimalı da var".

Gürcüstan parlamentinin spikeri vurğulayıb ki, NATO-nun qeyri-müəyyənliyi və ziddiyyətli qərarları Rusiyaya vəziyyəti daha da gərginləşdirməyə imkan yaratdı: "Bütün bu keçmiş şübhələr istər Gürcüstan hökumətinin səyləri, istərsə də tarixi geosiyasi dəyişikliklərlə aradan qaldırıldığı halda, indi biz Gürcüstanın nə üçün NATO-ya qəbul oluna bilməməsi ilə bağlı başa düşülən arqument görmürük. Siz indi daxili siyasətə istinad etməklə Alyansın Gürcüstanı rədd etməsinə haqq qazandıra bilməzsiniz. Xarici siyasi maraqlarla rəqabət aparan daxili radikalizm həmişə Gürcüstanın demokratik sistemindəki çatışmazlıqlar haqqında yanlış təsəvvür yarada bilər. Ancaq bu, səbəb deyil, sadəcə bir bəhanədir. Təəssüf ki, Gürcüstanın NATO və Aİ üzvlüyünün ən qızğın tərəfdarı olan bəzi Şərqi Avropa hökumətləri, sadəcə olaraq, Gürcüstandakı siyasi tərəfdaşları hökumətdə deyil, müxalifətdə olduqları üçün indi skeptiklərə çevriliblər. NATO-nun sadiq müttəfiqi olan Estoniyanın Baş nazirinin son şərhi problemi yaxşı anlamağa imkan verir. O, Gürcüstanın NATO-ya üzvlüyü üçün daha "tələsməyəcəyi"ni bildirir. Yuxarıda qeyd olunan bütün nailiyyətlər və siyasətlərlə, qavrayışlardan çox faktlara gəldikdə, heç bir şey həqiqətdən uzaq ola bilməz. Gürcüstanın bu tarixi məqamda sırf fərqli siyasi zövqlərə görə NATO-dan uzaqlaşdırılması gələcəyin bağışlamayacağı səhvdir. Gürcüstanın NATO-ya üzvlüyü partizan siyasətdən üstün olmalıdır".

*Mənbə: apa.az*

## DANIŞMAQ



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

"Danışmaq dilin sözlər vasitəsiylə düşüncəni şifahi olaraq izah etməsidir" deyə ifadə olunur ensiklopediyada. Danışmağın insana məxsus bir xüsusiyyət olduğu da heç kimə sirr deyil. Əgər bu xüsusiyyətin yalnız insana xas olduğunu deyiriksə, o zaman bu nemətin dəyərini də yaxşı bilmək lazımdır. Allahın insana vermiş olduğu nemətlərin ən böyüklərindən biri də danışmaq olmalıdır yəqin ki.

Bu nemət insana bəxş edilibsə, bu o demək deyil ki, insan ağzına və ağlına gələn hər şeyi danışmalıdır.

Ətrafımızda çox danışan insanlara da rast gəlirik, heç danışmayanlara da. Çox danışdıqları halda heç bir şey izah edə bilməyənlər də var, heç danışmadıqları halda çox şey izah edənlər də...

Bizə verilmiş bir nemət olan danışmağın dəyərini bilmək üçün, dili gözəl şəkildə istifadə edə bilmək üçün, oxumaq, söz xəzinəsini inkişaf etdirmək, düşüncə dünyasını zənginləşdirmək lazımdır. Əgər bunlarsız danışmağa cəhd edəriksə bu gün küçələrimizdə yerli-yersiz istifadə edilən küfr dolu sözləri, mənasız müzakirələri danışmış olarıq. Bəzən də çox danışmaq insanı yerli-yersiz sözləri tələffüz etməyə gətirib çıxarır.

Həzrət Peyğəmbər "Ya xeyir danış, ya das sus" buyurur. Buradan da görürük ki, çox danışmaq insana xeyirdən çox zərər gətirir.

Bəzən gecələri təmiz hava almaq üçün eyvana çıxırsan ki, gözün, könlün açıla, onda da görürsən ki, bir neçə gənc, həttə yaşları uşaq yaşı deyə biləcəyimiz bir neçə nəfər toplaşıb ya biədəb-biədəb danışır, ya oğru aləmini müzakirə edir və ilaxır. Düşünürsən ki, bu gənclər niyə gedib evlərində oturmurlar, boşuna nəfəslərini tükədirlər. Ən azından, evdə oturub bir kitab oxusalar danışdıqları da mənalı olar və sözləri də doğru, düzgün tələffüz edərlər. Tələffüz demişkən, danışıqda düzgün tələffüz etmədikləri yetmirmiş kimi, bir də danışdıqları səhvləri elə o cür də yazıya tökürlər.

Bizim insanlarda bir də belə bir anlayış var ki, əgər bu adam susursa, heç nə danışmırsa bu adam heç nə bilmir. Biz də özümüzü çoxbilmiş olaraq göstərmək üçün başlayırıq ağlımıza və ağzımıza gələni danışmağa. Daha düşünmürük ki, qarşımızdakı bu mövzuda bəlkə də bizdən daha məlumatlıdır. Bu hadisənin də toylarda və ya yas mərasimlərində daha çox şahidi oluruq. Bir də görürsən ki, çayxanalarda domino oynamaqdan başqa şeylərə vaxt tapmayan biri siyasətçilərə siyasət dərsi verir, atom parçalayıq, yeni texnika icad edir...

Danışmaq, ifadə edə bilmək yalnız sözlərləmi reallaşır? Sözlərin ifadəyə köməkçi elementlər olduğu kimi, bir də bədən dili vardır. Üzümüzün aldığı şəkil, rəftarımız, hərəkətlərimizlə də çox şey izah edə bilərik. Doğru-düzgün danışmağı bacaranlar sözlərinin daha təsirli olması üçün bir də bədən dilinə müraciət edərlər.

Sonda onu da qeyd edim ki, ən çətin şey danışmaqdır. Hələ bir də Allah adına, Peyğəmbər adına söz söyləyirsinizsə bu daha da çətin olur. Bu mövzularda məlumatı olmadığı halda rahatca danışanları gördükdə isə narahat olmamaq əldə deyil. Bunun üçün dəlilsiz, sübutsuz da danışmamaq lazımdır. Danışanları da bu şüur ilə dinləmək lazımdır.

Yunus Əmrə buyurur ki:

*"Söz ola – kəsə savaşı,*
*Söz ola – kəsdirə başı,*
*Söz ola – zəhərli aşı*
*Yağ ilə bal edə bir söz".*

İnsanlar "danışa-danışa anlaşarlar" deyiblər, amma cəmiyyət olaraq bunu hələ də bacara bilmirik kimi gəlir mənə...

Nəyi, harada və necə danışmağı bacara biləcəyimiz günlərin də gələcəyini ümid edirəm...

# DİREKTOR MÜƏLLİMİN İCAZƏSİ OLMADAN HANSI HALDA MÜQAVİLƏDƏ DƏYİŞİKLİK EDƏ BİLƏR VƏ HANSI HALDA DƏYİŞİKLİKLƏR YAZILI ŞƏKİLDƏ HƏYATA KEÇİRİLMƏLİDİR?




Müəllim məktəbdə işlə təmin olunana qədər mütləq əmək müqaviləsi bağlamalıdır. Müqavilədə tərəflərdən biri müəllim, digəri isə məktəb direktoru olur.

Əmək müqaviləsində tərəflər haqqında vacib məlumat, onların hüquq və öhdəlikləri, müqavilənin bağlanma tarixi və yeri, müəllimin işə başlama tarixi, əmək müqaviləsinin müddəti, iş saatı, istirahət saatı, əməkhaqqının miqdarı, ödəmə qaydası, ödənişli və ödənişsiz məzuniyyətin müddəti, həmin məzuniyyətin verilmə qaydası, tərəflərin cavabdehlik qaydası, işə qəbul edən və qəbul edilən tərəfindən müqavilənin dayandırılma qaydası, əmək müqaviləsini imzalayan tərəflərin rekvizitləri və s. mütləq qeyd olunmalıdır.

**Direktorun əmək müqaviləsində dəyişiklik etmək hüququ varmı?**

Əmək müqviləsində dəyişikliklər tərəflərin razılığı ilə yazılı şəkildə həyata keçirilməlidir. Ancaq istisna hallar da var. Direktor dəyişikliyi işə qəbul edilən şəxslə razılaşaraq həyata keçirmək məcburiyyətində deyil.

*"Əmək müqaviləsində hər hansı dəyişiklik və ya əlavə yalnız tərəflərin razılığı ilə həyata keçirilməlidir. Əmək müqaviləsində qanunvericiliyə görə yaranmış mövcud şərtlərin dəyişdirilməsi zamanı işlə təmin edilən şəxsin razılığına ehtiyac yoxdur.*

*Razılığa gəlinmiş dəyişikliklər və ya əlavələr yazılı şəkildə həyata keçirilməlidir. Bu əmək müqaviləsinin ayrılmaz hissəsidir və yalnız tərəflərin müvafiq imzasından sonra qüvvəyə minir. Əmək müqaviləsində edilmiş hər hansı dəyişiklik və ya əlavəyə həmin qoşmanın 10-cu maddəsinin birinci bəndi ilə tətbiq edilmiş qayda keçərlidir",* – qanunda yazılıb.

(10-cu maddənin birinci bəndi: Əmək müqaviləsi ilə müəyyən edilməlidir ki, məktəbin daxili qaydası onun ayrılmaz hissəsidir. İşlə təmin edən əmək müqaviləsi bağlayana qədər işlə təmin olunanı məktəbin daxili qaydaları (belə qayda olduğu halda), sonra isə həmin qaydada edilmiş dəyişiklik və əlavələrlə tanış etməlidir).

# İMTAHAN VERƏCƏYİ ÜNVANI SƏHV SALMIŞ ABİTURİYENTİ DÜZGÜN ÜNVANA İMTAHANLAR MƏRKƏZİNİN DİREKTORU ÇATDIRIB

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin direktoru Sopio Qorqodze imtahan verəcəyi ünvanı səhv salmış abituriyentə köməklik göstərərək onu düzgün ünvana özü aparıb.



Vahid milli imtahanlarda çoxlu sayda anlaşılmazlıq və ya maraqlı hallar baş verir. 2023-cü ilin vahid milli imtahanlarının ilk günü də belə hallardan yan keçməyib.

Gürcü dili və ədəbiyyat imtahanının ikinci sessiyasında abituriyentlərdən biri 207 saylı ictimai məktəbdə yerləşən imtahan mərkəzi əvəzinə 133 saylı ictimai məktəbdə yerləşən imtahan mərkəzinə gedib. Məhz bu zaman Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin direktoru Sopio Qorqodze də həmin ünvanda olub. O, tez bir zamanda həyəcanlı abituriyentə kömək edib, onu öz avtomobili ilə imtahan verəcəyi mərkəzə aparıb.

*"Biz gün ərzində imtahan mərkəzlərinə baş çəkirik. 133 saylı məktəbdə də qeydiyyat prosesini müşahidə edirdik. Bu zaman bir qız gəldi, imtahan mərkəzini dəyişik salmışdı. Çox həyəcanlı idi, çünki qeydiyyatın bitməsinə az vaxt qalırdı. Biz belə hallarda çalışırıq abituriyentlərə maksimum dərəcədə kömək edək. Ona görə həmkarımın köməyi ilə qızı maşınla düzgün ünvana apardıq. Biz ünvana çatanda vaxt çox az qalmışdı, amma əsas odur ki, çatdıra bildik. Ona imtahanda uğurlar arzu edirəm!"* – deyə Sopio Qorqodze bildirib.

Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin rəhbərinin sözlərinə görə, bu kimi hallar hər il baş verir. Buna görə də abituriyentlər daha diqqətli olmalıdırlar.

# BAŞ NAZİR: HƏTTA BAĞÇALARDA DA HƏRBİ TƏHSİL OLMALIDIR



Baş nazir İrakli Qaribaşvili çıxışı zamanı bütün məktəblərdə hərbi təhsilin tədrisinin planlaşdırıldığını deyib. O, qeyd edib ki, hərbi təhsil hətta uşaq bağçalarında da tətbiq edilməlidir.

*"Gənclərə müraciət etmək istəyirəm. İctimaiyyətin inkişafında ordunun əhəmiyyəti, qürurverici ordumuzun rolu böyükdür və gənclərimizin məktəbdən buna qoşulması mütləqdir. Hətta bağçalarda da hərbi təhsil olmalıdır. Gələcək nəsillər bizim qəhrəman əsgərlərimizlə şəxsən görüşəcəklər və düşərgə gənclərdə sağlam həyat tərzinin, düzgün dəyərlərin populyarlaşdırılmasına dəstək olacaq.*

*Ümumiyyətlə, sağlam həyat tərzinin populyarlaşdırılmasına bağçalardan, məktəblərdən başlamalıyıq... Məktəblərə müdafiə dərsləri daxil etdik, bu çox mühüm qərar idi. Gündən-günə maraq artır və bu layihə genişləndirilməlidir. Bütün məktəblərdə olmalıdır və bağçalara bu elementin daxil edilməsi mütləqdir",* – deyə Baş nazir bildirib.

# 7 ÖVLAD ANASI 45 YAŞLI ABİTURİYENT




Bu il Axaltsixedən olan 45 yaşlı Meqi Tateşvili vahid milli imtahanlarda iştirak edib. Uşaq bağçasında müəllimin köməkçisi işləyən Meqi stereotipləri qırmağa qərar verərək təhsilə başlamağın heç vaxt gec olmadığını sübut edib. O, gürcü dili və ədəbiyyat fənni üzrə özü hazırlaşıb.

**"45 yaşım var, 7 övlad anası, 2 nəvənin nənəsiyəm. Bu il vahid milli imtahanlara qoşuldum. Bu yaşda mənim qəbul etdiyim qərar, yəqin ki, çoxlarına qəribə gəlir...**

**1995-ci ildə jurnalistika fakültəsinə qəbul oldum. Ailə şəraitinə görə, təəssüf ki, ikinci kursdan təhsilimi davam etdirə bilmədim. Əlbəttə, buna görə həmişə təəssüf edirdim.**

**Yoldaşım 3 ildir ki, dünyasını dəyişib. Ondan sonra tək qaldım. İnsan, qadın üçün öz imkanlarından maksimum istifadə etməyin, təhsilin, ali təhsil almağın əhəmiyyətini analiz etdim. Mən isə bunların hamısından məhrum idim.**

**Çoxsaylı qarşı çıxmalara baxmayaraq yenə də stereotipləri qırmağa qərar verdim və bu yolla hamıya, həmçinin özümə göstərdim ki, qarşına hansı məqsəd qoysan, çox cəhd göstərsən yaş, ümumiyyətlə, heç nə demək deyil.**

**İndi uşaq bağçasında işləyirəm. Müəllimin köməkçisiyəm. Gələcəkdə də təhsil sahəsində inkişaf etməyi planlaşdırıram. Gürcü dili və ədəbiyyat fənni imtahanı üçün özüm hazırlaşdım. Ümid edirəm, hər şey alınacaq",** – deyə Meqi Tateşvili bildirib.

# MİLLİ MÜƏLLİ MÜKAFATININ QALİBİ: "ABİTURİYENTLƏR İMTAHANLARIN BU MODELİ İLƏ YENİDƏN QEYRİ-BƏRABƏR ŞƏRAİTDƏDİRLƏR"



**2022-ci ilin Milli Müəllim Mükafatının qalibi, pedaqoq Roland Şavadze vahid milli imtahanlara münaisbətini bildirib. O, abituriyentlərə uğurlar arzu edib, mövcud problemlərə diqqət çəkərək nələrin dəyişdirilməli olduğunu qeyd edib:**

"Sözsüz, vahid milli imtahanlar rüşvətin qarşısını aldı. Ümumi imkanlar yarandı. Milli səviyyədə ali təhil almaq şansı, demək olar ki, bütün sosial təbəqə nümayəndələrinə verilib. Ona görə bu, bəziləri üçün bu gün də etibarlı islahat kimi gəlir. Ancaq imtahanın bu metodu ilə abituriyentlər yenidən səhv şəraitdədirlər.

**Niyə?**

Asan izah edək. Əgər bəxtim gətirib şəhərdə doğulmuşamsa mənim ətrafımda müasir standartlara uyğun məktəb və peşəkar müəllimlər var, yaxud zəngin ailənin uşağıyam və bir neçə ildir güclü repetirorlar vasitəsilə hazırlaşıram. Kənd məktəblərinin məzunlarının əlindən prestijli universitetə qəbul olmaq imkanını və qrant qazanmağı alıram. Yəni mən yaxşı təhsili prestijli universitetdə pulsuz alacam, region məktəbindən olan mənim həmyaşıdım prestijli universitetə qəbul olarsa onun bəxti gətirib, amma onun ailəsi təhsil haqqını ödəməkdən qaça bilməyəcək.

**Nə dəyişməlidir?**

Kapitalizmin prinsipi belədir, yüksək rəqabət bütün sahələrdə insanların taleyinə qərar verir. Ona görə də ədalət potensial risklərin düzgün hesablanmasını tələb edir. İmtahanların bu modelini saxlasaq məktəblərdə bərabər şərait yaradılması üçün hər şey etməliyik. Bu isə mümkün deyil. Nə kifayət qədər resursumuz, nə də siyasi icazəmiz var. O zaman bu model dəyişdirilməlidir və region məktəblərinin məzunlarına fərqli imtahan tələbləri yaratmalıyıq (pozitiv diskriminasiya).

İmtahanların bu modeli haqqında çox danışa bilərik və dəyişikliklər üçün mübarizə də apara bilərik.

Bütün abituriyentlərə uğurlar arzu edirəm! Ədalətli Gürcüstanda yaşayın!**"** – deyə Roland Şavadze öz məktubunda bildirib.

Səhifədəki məlumatlar "etaloni.ge" və "edu.aris.ge" saytlarından götürülüb.
Gürcü dilindən tərcümə etdi: **Aynurə ƏLİYEVA**

# ÇOXUŞAQLI ARZULARDAN BİRUŞAQLI ARZULARA



Bir zaman varıydı ailələrdə uşaqları ürkütmədən saymaq olmurdu. O zaman çox da uzaqda qalmayıb. Hələ o zaman dilimini yaddaşında yaşadanların çoxu həyatdadır, xatirələrində onun acılı-şirinli anlarını yaşatmaqdadırlar.

Hə, yaxın tariximiz çoxuşaqlı ailələri ilə fərqlənirdi. Ən azı beş-altı qardaş-bacının bir yerdə böyüdüyü, cındırı çıxana qədər bir-birilərinin paltarlarını geyindikləri vaxtlardan danışıram. Ata-ananın öz iş-gücüylə məşğul olduğu, kiçikyaşlı uşaqları böyük bacı-qardaşlarının ümidinə qoyduğu dövr idi.

Çoxuşaqlılıq dəyər sayılırdı. Ailədə uşaqların sayının çox olması zənginliyə dəlalət edirdi. Bunun bir səbəbi olmamış deyildi. Doğulan hər yeni uşaq gələcəkdə ailənin işçi qüvvəsinə çevrilir, ailənin maddi təminatına öz töhfəsini verirdi. Bu işdə oğlan uşaqlarına daha çox üstünlük verilirdi. Oğlanları “arxa”, “düşmən çəpəri” sayırdılar. Qız uşaqları yad ocağı qalayan sayılırdı. Hətta qızın ailə üçün ağır yük olduğunu düşünənlər də var idi. Bir el deyimi dediklərimizi təsdiq edir: “Qız yükü, duz yükü”.

Ailələri çoxuşaqlılığa sövq edən rəsmi təbliğatın rolunu da deməmiz gərəkdir. Dünyaya çox uşaq gətirən qadını hökumət mükafatlandırır, onun yaxasına orden-medal asır, “Qəhrəman ana” adı verir, ona müəyyən güzəştlər edirdi. Bütün bunlardan həvəslənən qadınlar bir-birinin bəhsinə doğmaq yarışına girişirdilər.

Qadınlar çox uşağın çox da əziyyəti var kimi fikri heç yaxınlarına da buraxmırdılar. Çox doğuşun bədənlərini pis günə qoyacağı fikrini də eynlərinə almırdılar.

Bəzən ana ilə qızı, qaynana ilə gəlini eyni vaxtda doğuş keçirirdi. Bacı-qardaş uşaqlarından kiçik istənilən qədər dayıya, əmiyə rast gəlinirdi. Nənəsinin döşündən süd əmən nəvələrin sayı da istənilən qədər idi.

Ailədə hər uşaq bir işin qulpundan yapışırdı. Çox vaxt valideynlər işin uşağın yaşına, boyuna-buxununa uyğun olmadığına da əhəmiyyət vermirdilər. Uşaqlar bir-bir böyüyür, oxuyan oxuyur, işləmək istəyən iş tapıb işləyir, qız uşaqları tez-tələsik ərə verilirdi. Oğlanların evlənməsi əsgərlikdən sonraya saxlanılırdı. Bəzən oğlanları həddi-büluğa çatmamış evləndirir, onların oğul-uşaq sahibi olmasına çalışırdılar ki, əsgər getməsin. Belə oğlanlara da tay-tuşları lağ edib, ələ salır, məsxərəyə qoyurdular.

Amma adətlər tez evlənməyi təqdir edirdi: “Tez evlənənlə tez ayrılan yanılmaz”. Dünya da gör-götür dünyası. Sağda, solda tez evlənən tay-tuşunu görənlər bir ayaq tez evlənməyə üstünlük verirdilər. Qızlar da belə idi, oğlanlar da. Bir də ki, başqa nə edəsi idilər, başqa nə perspektivləri var idi. Onillər boyu, hətta yüzillər ərzində dəyişməyən, durğun kənd, ekstensiv təsərrüfat ukladı insana bundan artığını verə bilmirdi. Yeni nəsillərin köhnələri əvəz etməsinə baxmayaraq, oğul atanın kövşənini əkməyə məhkum idi. Qız da anasının tökdüyünü döşürməklə yetinirdi.

Perspektiv, karyera barədə yalnız barmaqla sayılan oxumuşlar düşünə bilirdilər. Onların düşünmələri də çox vaxt düşüncədən yuxarı qalxa bilmir, elə arzu olaraq qalırdı, mühit onları əjdaha sayaq kamına çəkib, özününküləşdirir, sıradan birinə çevirirdi və biçarələrin perspektivləri kəndin sərhədlərini aşa bilmirdi. Onların karyerası kənd miqyasında tamamlanırdı.

Yeniliklər ləng də olsa kəndə ayaq açdıqca bu və ya digər şəkildə kənd həyatında keyfiyyət dəyişiklikləri baş verdi. Texniki, texnoloji dəyərlərin kəndə gəlişi onun simasında müəyyən dəyişimlər yaratdığı kimi, kəndin daxili aləminə də nüfuz etdi. Kənd məişəti daha sürətlə şəhərliləşməyə başladı.

Ən böyük, inqilabi dəyişiklik isə kəndin demoqrafiyasında baş verdi. Dünənə qədər çoxuşaqlılığın dəyər sayıldığı, patriarxallığın at oynatdığı kənddə dəyərlərin dəyiş-düyüşü qısa müddət ərzində özünü göstərdi. Və bu proseslər o qədər sürətli baş verdi ki, köhnəliyə alışmış kəndi çaş-baş saldı.

Sözü uzatmadan deyim ki, artıq kənd ailəsində bir-iki uşaqlı olmağa üstünlük verildi, çox uşağın çox da qayğı tələb etdiyi düşüncəsinə keçid edildi. Artıq çoxuşaqlılıq kəndin ögey övladı durumuna düşdü, çoxuşaqlılığa az qala qanundan kənar bir hal kimi baxıldı. Çoxuşaqlılığı “pis itin küçüyü çox olar”, “pis qarpızın çiyidi çox olar” kimi dəyərləndirməyə başladılar.

Bütün bunlar cəmi bir neçə on ilin içərisində baş verənlərdir. Kənd yüzilliklər boyunca keçə bilmədiyi yolu, son bir neçə on ildə qət edərək tarixi rekorda imza atdı.

Artıq ailənin ölçülərində daralma, kiçilmə baş verdiyini bilirik. Az qala keçmiş ailədən, ailə dəyərlərindən heç bir əsər-əlamət qalmadığı göz qabağındadır. Ailə getdikcə uşaqların üstündə əsmək, uşaqlara daha çox diqqət, daha çox qayğı göstərmək kimi keyfiyyətlər qazandı.

Çoxuşaqlılıq dönəmində hər uşaq bir peşənin qulpundan yapışır, pis-yaxşı bir sənətə yiyələnirdisə, azuşaqlılıq da bu sahədə yeniliklər yaratmaq yolunu tutdu. Yeni ailə tipi uşağı başqa cür yükləməyi qarşısına məqsəd qoydu. Belə ki, müasir ailədə böyüyən bir və ya iki uşaq böyüyənə qədər valideynlərinin çoxsaylı arzularını yerinə yetirmək məcburiyyətinə qatlaşmalı oldu. Bu yeni uşaq tipi fiziki əməkdən uzaq tutulsa da, çoxsaylı repetitorların yanına ayaq döyməli, idman seksiyasına getməli, musiqi alətində çalmalı, rəsm çəkməli, rəqs müəlliminin öyrətdiklərini mənimsəməlidir. Öz arzularını bir kənara qoymalı və valideynlərinin arzularını gerçəkləşdirməli, yekun bir sənətə sahib olmalı, özünə karyera qurmalıdır. Həm özünü, həm də böyüklərini xoşbəxt etməlidir.

Bax, çoxuşaqlı arzulardan təkuşaqlı arzulara keçid beləcə baş tutdu.

**Afiq MUXTAROĞLU**

# FIRÇADAN KƏTANA HOPAN DÜNYA



Bir müəllim kimi yox, sıradan valideyn kimi, bir övlad kimi bütün məsuliyyəti ilə deyirəm ki, heç bir valideyn öz övladı üçün qırx beş dəqiqə eyni mövzunu danışmır, heç bir övladın da valideyni eyni mövzuda qırx beş dəqiqə dinləməyə səbri çatmaz (xüsusən də indiki zamanədə).

O müəllimdir, o müəllimdir ki, ömrününün neçə-neçə qırx beş dəqiqələrini xalqının, dövlətinin balaları üçün xərcəyir. Ömrünü şam kimi əridir bu deməkmiş. Bu dəyərlər o zaman qiymətli olar ki, müəllimin elmi, savadı, hərtərəfli mənəvi səviyyəsi, mədəniyyəti, milli təfəkkürü, qeyrəti, əxlaqı, tərbiyəsi bu dəyərləri qarşılaya. Ən məsuliyyətsiz şagird belə nə qədər dərsə qulaq asmasa da hər gün o müəllimdən eşitdiyi bircə cümlə onun həyat pilləkanlarında dəstək çəpərinə bir kərpic ola bilər.

Mənim tanıdığım bir rəssam var. O, tək müəllim deyil, o, tək vətənpərvər deyil, o, tək bacarıqlı texnologiya-sənədləşmə işçisi deyil, həm də bir ləyaqətli Azərbaycan qızıdır. Qadına məxsus bütün xüsusiyyətləri özündə cəmləyən Xəyalə müəllim təpədən-dırnağa nümunəvidir. Xəyalənin yaradıcılığına daxil olsan oradan çıxmaq çox çətindir, çünki səni ağuşuna alan rənglər dünyasında itirsən.

Dilimizdə minlərlə söz var, amma o sözlər muncuq kimi öz yerində düzüləndə cümlə yerində alınır. Yaradıcı insanlarla sıravilərin fərqi odur ki, yazarlar o sözlərdən cümləri təfəkkürünün təqlidiylə şeirini, hekayəsini; bəstəkarlar yağışın səsindən, suyun şırıltısından, qayaların uğultusundan notları uzlaşdıraraq musiqisini yazırsa; rəssam da əsrarəngiz təbiətin saysız çalarlarını kətana çevirir.

Xəyalə müəllimin yaradıcılığını izləyərkən, sanki, ədəbiyyat, musiqi və rəssamlıq onun ifadə üslübu – palitrası ilə birləşir. Rəsmlər həzin musiqi səsiylə danışır, rənglər ifadə edir. Necə də möhtəşəm! Bunu canlı müşahidə etmək üçün gərək sərgidə olasan.

İllərdir öz rəng dünyasıyla addımlayan Xəyalə öz yaradıcılığını gizlin saxlayırdı. 2021-ci ildə Gürcüstanda Azərbaycan Səfirliyi “Müstəqilliyə aparan yol – 9 Aprel-20 Yanvar” esse və rəsm müsabiqəsi elan etdi. Bütün iştirakçılar səfirlik binasında yığılmışdılar. Nəticə elan olunmamışdan qabaq təqdim olunan rəsmlər və esselər sərgilənmişdi. Düzü, esseləri oxumadım, amma rəsmlərə maraqla və diqqətlə baxdım. Müsabiqələrdə mənə çox maraqlı olur, düşünürəm ki, görəsən, münsiflərlə eyni qərarı verə biləcəmmi? Sərgidə bütün rəsmlər maraqlı və fərqli idi, ən çox iki rəsmi bəyəndim. Birində nəhəng bir ayı təsvir olunmuşdu, qəfəsə saldığı quşlar çırpınıb çıxırlar, ağ göyərçinlər qırmızı rəngə boyansalar da qırmızı çalarlıydı, amma dimdiklərində müstəqillik bayrağı vardı – Azərbaycan və Gürcüstan.

İkinci rəsmdə isə 20 Yanvar və 9 Aprel səhnələri təsvir olunsa da davamı vardı, o davam Xocalı soyqırımına istiqamətlənirdi. Ssenarinin davamı, ardıcıllığı müəllifin rəsmiylə, həmçinin tarix və zaman ardıcıllığını göstərirdi. 9 Aprel rəsmində isə 9 rəqəmi şəhidlərin rəsmləriylə çəkilmişdi. Hətta nazir müavini belə “sən bunu necə düşündün” deyə təəccüblənmişdi.

Sərgidən sonra Gürcüstan rəsmisi – mədəniyyət nazirinin müavini və Azərbaycan səfiri geniş çıxış etdilər. Mənimsə fikrim rəsm müsabiqəsinin nəticəsində idi. Özüm də esse müsabiqəsində iştirak edirdim, amma məni kövrəldən və qürurlandıran rəsmlərin müəlliflərinin kimliyi məni rahat buraxmırdı. Nəhayət, elan olundu. Həmişəki kimi yenə də seçimimdə yanılmamışdım. Seçdiyim əsərlər qalib oldu. Xəyalə Mustafayevanı onda tanıdım. Marneulidən Tbilisiyə bir-birimizi tanımayan iki iştirakçı kimi getdik və geri müsabiqədə qalib gəlmiş iki tanış kimi qayıtdıq.

İkinci dəfə 2021-ci ilin iyununda Nizaminin yubileyi ilə əlaqədar yenə Azərbaycanın Gürcüstandakı səfirliyinin elan etdiyi müsabiqədə qalib olan gənc rəssamın ilk sərgisi 5 oktyabr 2022-ci ildə Axundov adına Tbilisi Azərbaycan Mədəniyyəti Mərkəzində oldu. Müəllimlər Günündə səfirimiz Faiq Quliyev müəllimimizin sərgisini təşkil etdirməklə bütün Gürcüstandakı azərbaycandilli müəllimləri təbrik etdi.

İkinci sərgi 2023-cü ilin yanvarında Nərimanov adına Marneuli Mədəniyyət Evində oldu. Nəhayət, üçüncü sərgi Marneuli rayonu Qaçağan Mədəniyyət Mərkəzində baş tutdu.

“Qafqaz-Türk Media”nın təşkil etdiyi bu sərgi daha fərqli idi. Açıq havada, həyətdə, yol qırağında olan sərgi hətta yoldan keçənlərin də marağına səbəb olurdu. Şagirdlərin, müəllimlərin, müxtəlif kəndlərdən olan qonaqların, kənd camaatının ruhunu oxşayan rəsmlər 3 saata yaxın sərgiləndi.

Xəyalə xanımın yaradıcılığını izlədikcə özün də hiss etmədən mükəmməlləşirsən, çünki mənən qidalanırsan.

Düşünürəm, nə yaxşı ki, Xəyalə xanım müəllimdir. Nə yaxşı ki, onu dinləyən onlarla şagirdi var. Hər şagirdin müəlliminin mənəvi dünyasından aldığı bircə cümlə nümunə onun öz həyat yolunun pilləkanlarında kərpiclər yaradacaq.

Xəyalə müəllim, sənə fırçandan kətana hopan rənglər dünyanda uğur arzu edirəm! Həyatda hər şeyin bir ölçü dəyəri var ki, onun da mənəvi və maddi tərəfləri var. Çox istərdim ki, o həyatda mənən qiymətləndiriləsən. Layiq olduğun yerdə olasan həmişə. Yaradıcı adamlara ən böyük dəyər qiymətləndirilməsidir. Qiymətli olasan!

Sağlığında qiymət verək insanlara!

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# EYNİ DÖVLƏTİN FƏRQLİ ŞƏRTLƏR ALTINDA BÖYÜDÜLƏN GƏNCLƏRİ



Sizə həmin o gündən danışım, aylardır hazırlaşdığımız imtahanın ilk günündən.

Məktəb binasının qarşısında yüzlərlə məzun tələbə adını qazanmaq üçün imtahana giriş biletləri və bir butulka su ilə sıra gözləyirdilər. Həyət ən azı övladları qədər həyəcan yaşayan valideynlərin təlaşı, dostlarını yad bir ölkəyə yola salırmış kimi uğurlayan gənclərin səs-küyü ilə dolu idi. Kimisi gülə-oynaya, kimisi də qorxu içində içəri daxil olur, yoxlanışdan keçir, daha sonra hər kəs sinif otağının nömrəsinə görə öz sinfinə gedirdi.

Qapıda abituriyentləri ilk öncə nəzarətçilər qarşılayır, hər şeyə çox ciddi nəzarət edilirdi. Şəxsiyyət vəsiqəmiz, imtahan biletimiz, sinfə daxil olduğumuz andan heç nəyə toxunmağa icazə verilmir, suyu belə masanın üzərinə qoymaq qadağan olunur. Adlarımız, soyadlarımız, sıra nömrələrimiz kuratorlar tərəfindən dəfələrlə yoxlanıldı. Heç bir səhvə yol verməmək üçün əllərindən gələni etdilər. İlk imtahan azərbaycanlı uşaqların nadirən iştirak etdiyi gürcü dili və ədəbiyyatı imtahanı idi. Nə formatda olduğunu soruşsanız, hər kəs çətin olduğunu deyəcək. Amma öz ana dillərində olan bir imtahan, bu cür sadə formatda hazırlanmış bir imtahan heç bir gürcü üçün çətin olmamalı idi.

Vaxt yetəri qədər verilir – üç saat, az bir zaman deyil. Məncə, 12 il məktəb oxumuş hər bir gürcü asanlıqla onu yazmağı bacarmalıdır. İmtahanda qarşılaşdığım mövzunu görəndə özümdən asılı olmayaraq beynimdə sual yarandı: axı nəyə görə bizə məktəbdə gürcü ədəbiyyatından heç nə öyrədilməmişdir? Məktəbdə müəllimlərimiz tərəfindən ancaq "gürcünün ədəbiyyatımı var" sözlərini eşitmişdik, elə də, olmadığına inanıb araşdırmaq, öyrənmək ağlımıza da gəlmədi.

İçəridə keçirdiyim üç saat müddətində ağlımda baş verənləri sizə sözlərimlə bilmirəm necə izah edəm. Bir an bildiklərimi unutdum, ağlım qabağımdakı kağız kimi idi, heç nə düşünə bilmədim. Üstəgəl nəzarətçi qadının gözlərini üzərimdən çəkməməsi məni narahat etməyə başladı. İmtahan kağızında soyadı "eva" sonluğu ilə bitən təkcə mən idim və azərbaycanlı olduğumdan, ya da bilmirəm nə səbəbdən, sanki bir tək o imtahan otağında mən varammış kimi hərəkət etməyə başladılar. İçəridən çıxanda üzərimdən bir yük qalxmışdı. Nəticəm necə olacaq bilmirəm, amma ən azından artıq qorxduğum qədər heç nə olmadığını öyrəşib, içərinin necə olduğu ilə tanış olmuşdum.

Eyni dövlətin abituriyentləriyik, amma fərqli formatda imtahan veririk. Bizlərlə müqayisədə onların işləri doğrudan da asandır. Hərf səhvlərini tapmaq və ya hər hansı bir mövzu haqqında 150 sözlük qısa bir esse yazmaq elə də çətin deyil. Əgər bu formatda bizim uşaqlar imtahan versəydilər maksimum bal toplaya biləcəklərinə sizi əmin edə bilərəm.

Gürcü abituriyentlər üçün suallar tamamilə məktəbdə öyrəndiklərindən ibarətdir. Biz isə məntiq imtahanı verməliyik, hansı ki, məktəbdə onunla bağlı bizə heç nə öyrədilməyib. Heç nədən söhbət getdiyini belə bilmirdik.

Gürcü dili və ədəbiyyatı imtahanından üç gün sonra riyaziyyat imtahanına getdim. Bu dəfə keçən dəfə olduğundan daha rahat idim. Stresim azalmışdı. Yenə eyni qaydalar tətbiq olundu. Sinif otağımı axtararkən bir qızın nəzarətçi qadına nəsə deməyə çalışdığını gördüm, həyəcandan gürcücə danışa bilmirdi, başa düşdüm ki, azərbaycanlıdır. Qadının bu qıza "Nə demək istəyirsən, de! Bilmirsiniz niyə gəlirsiniz" kimi ifadələr işlətdiyini eşitdim. Mənə çox pis təsir etdi...

Üç gün öncə oxşar hadisəylə qarşılaşmışdım, eyni sinifdə olduğum gürcü oğlan çox həyəcanlı idi, yaxınlaşıb sakitləşdirmişdilər, hava almaq istəyib-istəmədiyini soruşub kömək etmişdilər ki, özünü ələ alsın. Bunu həmin qıza etmədilər, amma nəyə görə, gürcü olmadığı üçünmü?..

Axı eyni dövlətin gəncləriyik biz, istər gürcü, istərsə də azərbaycanlı olaq, hər birimiz oxuyub bitirdikdən sonra bu dövlət üçün çalışacağıq...

Riyaziyyat imtahanı 37 test və 4 açıq sualdan təşkil olunmuşdur (təbii ki, gürcü dilində). Başlamazdan əvvəl sual verdim ki, əgər nəsə səhv etsək vərəqimizi dəyişə bilərikmi? Mənə sadəcə eynəyinin altından baxıb "diqqətli ol, dəyişməyə ehtiyac qalmasın" dedi. Sonra imtahan başladı, arxada bilmirəm nə baş verdi, həmin qadın əlində yeni imtahan vərəqi arxaya getdi. Başa düşmürəm bəzi insanlar nəyə görə milli kimliyinə, görünüşünə görə insanları bir-birindən ayırd etməyi sevirlər...

İnsan olmaq dil bilməklə, savadla, ya da milli kimliklə olmur. İnsanın yaxşısı-pisi danışdığı dildən, inandığı dindən, milli kimliyindən asılı deyil. Hər bir millətdə yaxşı da var, pis də.

Gürcülərlə eyni ölkədə yaşayırıq, amma gürcü tanışı olan çox azdır. Bəzilərimizin heç yoxdur belə. Buna səbəb olan elə bu "yuxarıdan baxış"dır ki, bəzi insanlar bir-birlərini bəyənmirlər. Tanıdığım bir neçə gürcü və azərbaycanlı rəfiqələr var. Çox mehribandırlar. Onların övladları da bir yerdə oynayırlar, danışırlar, aralarında millət ayrı-seçkiliyi etmirlər. Olmazmı bütün uşaqlara bunu öyrədələr – dost olmağı, sevgi göstərməyi, yaxşı münasibət qurmağı. Daha başqa millət görəndə düşmənmiş kimi baxmağı yox. İnsanları, başqa xalqın nümayəndələrini dil, din, dəri rənginə ayırmadan sevmək, məncə, bu qədər çətin olmamalıdır. Çünki "adamlar irqlərə bölünmürlər, irqlər adamlara və adam olmayanlara bölünürlər" (Boris Şapiro).

**Aytən Fətullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin məzunu*

# "XALQ NƏ DEYƏR" DÜŞÜNCƏSİ



Axı niyə bizim üçün başqalarının nə düşündükləri daha önəmlidir? Biz həyatı başqaları üçünmü yaşayırıq? Yoxsa, başqaları dediklərimizmi bizim həyatımızı idarə edir?

Əlbəttə ki, hər kəsin öz düşüncəsi, öz istəkləri var. Kim həyatı necə istəyir elə də yaşamalıdır, amma düzgün şəkildə. Ancaq biz etdiyimiz şeyin düzgün olduğunu bilə-bilə yenə də geri addım atırıq. Çünki "xalq bizə nə deyər". Hər birimiz ən azı bir dəfə də olsa bu cümləni eşitmişik. Bəzilərimizdə bu cümlə hələ travma olaraq qalıb. Məsələn, əlavə dərsə gedirdim. Birdən bir hay-küy, ağlaşma səsi gəldi. Bütün qonu-qonşu bir yerə toplaşmışdı. Evdəkilərə "qonşuda nəsə olub, hər kəs oraya toplaşıb" dedim. Və bizimkilər də ora getdilər. Sən demə, qonşunun 4 yaşlı uşağı itibmiş. Hər yeri axtarıblar, tapa bilməyiblər. Ananın gözləri ağlamaqdan şişmiş, halı pisləşmişdi. Ancaq o yenə də qonu-qonşunun ona nə deyəcəyini fikirləşirdi. Hər kəs uşağı axtararkən ananın dediyi söz bu idi: "Qonu-qonşu bir uşağa baxa bilmədi deyəcək". Ananın bu sözlərinə nə qədər hirslənsəm də özümü güclə saxladım. Çünki o məndən böyük idi. Qonşular deyəcəkdi "özündən böyüyə söz qaytardı". Nəhayət, uşaq tapıldı. Hər kəs öz evinə getdi.

Mənim isə ağlımda bir çox suallar yarandı: Axı nə üçün, nəyə görə bizə kimin nə deyəcəyi bu qədər çox vacib və maraqlı olmalıdır? Sonra fikir verdim ki, bu problem məndə də var. Orada ana qonu-qonşunun nə deyəcəyini dedikdə, mən bir kəlmə də demədim. Bax, elə bizim problemimiz də budur. Çünki biz lazımsız söz-söhbət yaranmasın, heç kim pis fikirləşməsin deyə bir şeyi yeri gəlsə beş dəfə də fikirləşməliyik. Mən bunun nə qədər düzgün olmadığını dərk etsəm də, mən də onlar kimi fikirləşirəm. Çünki biz belə böyüdüldük. Belə də davam edir. Və belə getsə yenə də davam edəcək. Bu düşüncədən yaxa qurtarmaq olmayacaq. Öz-özümüzə heç sual veririkmi ki, axı mən nəyə görə başqalarının düşüncəsi ilə maraqlanmalıyam? Hər kəs fikir bildirə bilər. Ancaq hər şey öz yerində. Məsələn, parka getmək istəyirsən, evin fərdlərindən biri deyir "Xalq deyəcək elə bil balaca uşaqdır, otur evdə", "Bu nə stildi geyinibsən, deyəcəklər bunun atası-anası yoxdurmu", "Əli baba, tək yola çıxma, sonra deyəcəklər yaşlı adamı çölə tək buraxıblar", "Gecdir, getmə, deyəcəklər hara gedir bu gecə vaxtı"... deyəcəklər, deyəcəklər və yenə də deyəcəklər...

Çünki bizim üçün başlıca xalqın fikirləri, nə dedikləridir, daha sonra isə öz istəklərimiz gəlir. Məsələn, bizim uğurlarımıza həmişə sevinirlər, afərin sənə, uğurların bol olsun deyirlər. Amma bilmədən də olsa bir balaca səhv et, o vaxtı elə bil səbirsizliklə gözləyirlərmiş, heç soruşmurlar niyə belə etdin, kim məcbur etdi, bəlkə başqa planın var idi... O dəqiqə başlayırlar tənqid etməyə: "Heç sənə yaraşdımı belə etmək, ayıbdır, kimdən gözləsəm də, səndən gözləməzdim, mən də hamıya səni örnək göstərirdim, sənə güvəndiyim dağlar, sənə də qar yağarmış" və sairə.

**Validə Fətullayeva**

*Qardabani 3 saylı ictimai məktəbin məzunu*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

**On dördüncü boy.** Bu dastan da irəliki boyun davamıdır. Ərzincandan qayıdan Koroğlu dəliləri ilə birgə Çənlibelin bütün bəndərgahlarını gözdən keçirdi. Sonra aşıq paltarını geyindi, dəlilərin tövsiyə və yalvarışlarına məhəl qoymadan Qarsa tərəf yola düşdü. Yolda bığ yeri yenicə tərləmiş cavan oğlana rast gəldi. Koroğlu onu səslədi və onunla söhbət elədi. Məlum oldu ki, bu gənci Qars paşasının qızı Hürü xanın göndərib. Bu sonuncu ona nəql etdi ki, türkmanlı Ərəb Reyhan neçə müddətdir ki, gəlib Qarsda əyləşib, onun üzərinə hücuma hazırlaşır. Qarsın paşası da söz verib ki, əgər Çənlibeli ala bilsə qızı Hürü xanımı ona verəcək.

Koroğlu çox götür-qoy eylədi və həmin gəncin evində duruş gətirmək qərarına gəldi. Lakin gəncin evində qonaq olana kimi, Koroğlu şəhərdə küçə ilə gəzmək istədi. Koroğlu gəzə-gəzə bir imarətin qabağına çıxdı. Baxdı ki pəncərədə bir qız durub, necə deyərlər, yemə, içmə, xətti-xalına, gül camalına tamaşa eylə. Koroğlunun ürəyi coşdu, könlü havalandı, sazı sinəsinə basıb aşiqanə bir qoşma dedi. Lakin Hürü xanım ağzını açıb danışmaq, onu dəvət etmək istəyirdi ki, qəflətən onun atası və Ərəb Reyhan atla bu tərəfə gəlirlər. Oğlan və Koroğlu gizləndi. Sonra oğlan şey-şüy almaq üçün bazara qaçdı. Lakin tələsirdi və növbədə durmadan almaq istəyirdi. Camaat qiyam qaldırdı, o qürurla bəyan elədi ki, qonağı Koroğludur. Camaat arasında söz düşdü ki, bəs Koroğlu Qarsa gəlib. Söz axırda gəlib çatdı Ərəb Reyhanla paşanın qulağına. Onlar əvvəlcə şəhərin ətrafını tutdular və yatan Koroğlunun üstünə töküldülər. Koroğlu bir təhər otaqdan çıxa bildi və özünü həyətə verdi, orada da çoxlu adamla rastlaşdı. Ağzı düşdü bir tərəfə, xeyli getdi, onu gördü ki, qabağına balaca bir qapı çıxdı. Açıb qapını girdi içəri. Sən demə, bura minarəyə çıxmaq üçün yol imiş. Hara qaça bilərdi?!

Bu ərəfədə oğlan özünü verdi Hürü xanımın yanına və hər şeyi ona danışdı. O tezcə Çənlibelə getməyi və hər şeyi onlara danışmağı ona məsləhət gördü.

Koroğlu isə bir növ çətin duruma düşdü. O uca minarənin başındadı, qoşun da dörd bir tərəfi tutub. Nə yarağı var, nə də atı. Aşağı düşsün, yoxsa burada qalsın, nə vaxtacan qalsın? Ürəyi qubar elədi, dəlilər yadına düşdü. Koroğlu oxuya-oxuya səhəri açdı. Koroğlu minarənin başından Çənlibelə tərəf baxdı. Amma nə qədər elədi Çənlibeli görə bilmədi. Dağlar elə bil ki, aranı kəsmişdi. Koroğlu həddindən artıq kədərə büründü. Onu şübhələr sıxdı, dəlilər məndən oldu dedi. Halbuki gün çıxıb dağlara yayıldı, uzaqdan dağların başının üstündən Çənlibel dağlarının qarlı başları göründü. Bu, Koroğlunu daha da qubarlandırdı. Qəhrəmanı dərd daha da yandırdı və üçüncü dəfə oxudu: Nə dəlilər, nə Çənlibel görünür. Dəlilər yanımda yoxdur, mən yalqızam, düşmən çoxdur. Qaçmaq mənə ar görünür. Divanə könlüm şad olmaz, laçın könlüm ovsun almaz. Bu sinəm yaralı düşdü, dağların maralı düşdü. Tərlan uçmaz, sar görünür. Və sonunu belə bitirdi:

**Koroğlunun məlul çağı,**
**Durulmaz kefi, damağı.**
**Bar gətirib gürcü bağı,**
**Dal budaqda nar görünür** *(Bax: "Koroğlu", səh. 557).*

Koroğlunun belə dərdli-dərdli oxumağı Ərəb Reyhanı sevindirdi. Minarənin ayağına gəldi: "Allah heç kəsin borcunu heç kəsdə qoymaz. Yaxşı düşübsən əlimə". Koroğlu isə cavab verdi: "Sənin mənimlə xüsusi haqq-hesabın var. Day bu qoşunu-zadı niyə yığıbsan bura? Yol ver, düşüm, vuruşaq. Ya sənə verər Allah, ya mənə".

Ərəb Reyhan Koroğlunun nə bu şərtinə, nə də başqa şərtlərinə razılaşdı... Koroğlu isə aclıq ilə ölüm hökmü çıxarır. Lakin onun qorxusu da var ki, Koroğlunun sözü olmasın, dəlilər də özlərini yetirərlər və Qarsın üstünü alarlar. Görün onda nə eləyəcəksiniz dedi. Bundan qorxan Ərəb Reyhan külüngçüləri, qazmaçıları gətirdi və minarənin dibini qazmağı əmr etdi.

Bu ərəfədə həmin oğlan Çənlibelə çatdı və bütün əhvalatı danışdı.

Nigar xanımın əmri ilə Dəli Həsən və Dəmirçioğlu min-min dəli ilə orada qalmalı idilər. Qalan dəliləri Eyvaz götürüb Koroğlunun dalınca getməli idi.

Eyvaz hökm elədi, dəlilərdən yeddi yüz nəfəri ayrıldı, hər yüzü verdi bir dəstəbaşına. Lakin əvvəlcə Hürü xanımın imarətinə doğru getdilər. Bu sonuncu Eyvazı görən kimi düşündü ki, Eyvaz bir oğlandı, bir oğlandı, Yusif-zad nədi bunun yanında. Bir könüldən min könülə Eyvaza aşiq oldu. Qoşma ilə onu tərif etdi. Eyvaz da qoşma ilə ona cavab verdi.

Çıxılmaz duruma düşən Koroğlu aşağı düşdü. Bu zaman Eyvazın səsi eşidildi. Dərhal minarənin başına çıxdı və bir dəli nərə çəkdi. Şükür olsun Allaha, bu gələn Eyvazın səsidir, bir alıcı tərlan kimi qırar sağını, solunu dedi Koroğlu. Ərəb Reyhan belə baxanda gördü ki, bir dəstə dəli gəlir. Qoşun böyüyü də pis xəbər gətirdi, dəlilər bütün şəhəri tutublar. Eyvaz Ərəb Reyhanın üstünü aldırdı və nərə çəkdi: "Bu saat Koroğlunu ver, yoxsa şəhərin torpağını torba ilə daşıtdıracağam". Ərəb Reyhan minarənin dibinə işarə elədi ki, bircə dəfə işarə eləsə minarə gedəcək, Koroğlu da onunla bərabər. Yaxşısı budu ki, nə sənin qoşunun qırılsın, nə də mənim. Buna görə də gəl meydanda ikimiz vuruşaq. Kim qalib gələrsə, onun ədaləti bayram etsin. Koroğlu gördü ki, vuruşun qarşısını ala bilməyəcək, yuxarıdan tövsiyə etməyə başladı. Qısası, Ərəb Reyhan və Eyvaz bir-birilə vuruşdular. Yaraq qalmadı istifadə edələr. Təcrübəli Ərəb Reyhan girələyib Eyvazın çiyin damarlarını saldı cənginə. Elə bil dünya, aləm durdu onun başına hərlənməyə. Koroğlu gördü ki, Eyvaz gedir. Elə bir nərə çəkdi ki, dağ-daş titrədi. Elə bil ki, Koroğlunun sözlərindən Eyvaza qüvvət gəldi. Meydana hərlənib dedi:

**"Koroğlu buyurub buyruğu,**
**Gərək mən sənin, mən sənin.**
**Çəkib qopardam boynunu**
**Gərək mən sənin, mən sənin.**

**Bir ac qurdam, gəldim bura,**
**Əyri qılınc boynum vura.**
**Gözaltını alam sora**
**Gərək mən sənin, mən sənin.**

**Eyvazam, gərək yetirəm,**
**Hürüyə qulluq bitirəm,**
**Adın dünyadan itirəm,**
**Gərək mən sənin, mən sənin**
*(Bax. "Koroğlu", səh. 565).*

Sözünü qurtarıb qızmış nər kimi özünü atdı Ərəb Reyhanın üstünə. Elə birinci həmlədə onu vurub yerə sərdi. Artıq aman verməyib düşdü üstünə. Bu dəfə də Eyvaz Ərəb Reyhanın çiyin damarını keçirdi barmağına. Ərəb Reyhanın ağzı başladı köpüklənməyə. Eyvaz birdən Ərəb Reyhanın çiyinlərini buraxıb yapışdı bel kəmərindən. Qaldırıb göyə, vurdu yerə, çökdü sinəsinə. Eyvaz xəncəri çəkib dayadı Ərəb Reyhanın boğazına. Dönüb Koroğluya tərəf baxdı ki, görsün onun fikri nədir. O belə dedi: "Mən bir dəfə onu mərdliklə basıb, mərdliklə də buraxmışdım. Amma bunun əvəzində o mənə namərdlik etdi. Namərd də gərək bu dünyada yaşamasın". Eyvaz işi axırına çatdırdı. Xəncəri çəkib onun başını bədənindən ayırdı.

Koroğlunu bayıra çıxartdılar. Paşa yoxa çəkildi. Çox axtardılar, lakin onu tapa bilmədilər. Koroğlu buyurdu: "Bu cür adamların igidliyi ondu, doqquzu qaçmaqdı, biri heç gözə görünməməkdi. Day axtarmayın!" *(Bax: "Koroğlu", səh. 567).*

Koroğlu və dəlilər atlara mindilər, getməyə hazırlaşdılar. Koroğlu Eyvazdan niyə hazırlaşmadığını üç dəfə soruşdu. Eyvaz cavab verdi ki, onun dəli könlünə bir alagöz yar görünür. Koroğlu dönüb Eyvazın baxdığı yerə baxdı. Hürü xanımı gördü. Hürü xanım elə baxır ki, sanki yaralı ceyrandır. Koroğlu məsələni başa düşdü. Ata bir qırmanc vurdu, Hürü xanımın yanına çatanda əlini uzadıb dik götürərək tərkinə qoydu və Çənlibelə doğru yola düzəldi. Eyvaz da düşdü onun arxasınca.

Yol ilə gedənlərə bir oğlan tərkində də qoca qarı rast gəlir. Bu, Koroğlunu evində qonaq edən gəncdir, tərkində də onun anası. Onlar sığınacaq tapmaq üçün Çənlibelə can atırdılar.

Çənlibeldə böyük bir toy quruldu. Koroğlunun gözünə Eyvaz dəymədi və odur ki, onu soruşdu. Ona cavab verdilər ki, sən onun atasısan, sən rüxsət verməsən, o gəlməz. Koroğlu sazı sinəsinə basdı. Eyvazı dəvət etdi. Sonra xanımlar da bəzənib-düzənmiş Hürü xanımı məclisə gətirdilər. Koroğlu bir daha yenə sazı sinəsinə basdı və Hürü xanımı tərif etdi.

Eyvazın toyu düz qırx gün, qırx gecə davam etdi. Hasan paşa Ərəb Reyhanın qırxını verən gün Eyvaz və Hürü murad verib, murad aldılar *(Bax: "Koroğlu", səh. 570).*

Bu dastana uyğun olaraq da Koroğlunun özü Qarsa vəziyyəti öyrənmək üçün elə gedir ki, öz silahdaşlarına heç nə demir.

Onun bu hərəkətini bir neçə səbəblə izah etməliyik: Birincisi, özünün özünə inamı ilə; ikincisi, silahdaşlarını təhlükəyə atmaqdan çəkinir; üçüncüsü, öz canını fəda edir və ölümü bir şeyə saymır, həqiqi bir igid olaraq.

Lakin bu dəfə tələyə düşməsi onun günahı deyildir və təcrübəsiz gəncin qeyri-ixtiyari buraxdığı səhvin nəticəsidir.

Lakin diqqət edilməlidir ki, bu dastanda Koroğlu misilsiz döyüşçüyə nisbətən daha çox dolğun aşıq rolunda çıxış edir. Birincisi, o Hürü xanımın gözəlliyinə valeh olur, gözəl mahnılarla onu mədh edir. İkincisi, minarəyə qapanmış Koroğlu misilsiz döyüşçünün həvəsinə nisbətən daha çox insani duyğular və kədər hissi keçirir. O, öz narahatlığını, arzuya uyğun olaraq, üç dövr olaraq ifadə edir. Sübh zamanı Koroğlu öz qara bəxtliliyini dərk edir və dəlilərini – Eyvazı, Dəmirçioğlunu, Dəli Həsəni və başqalarını yada salır. Koroğlu mahnı oxuduqca tədricən səhər açılır, sis, duman çəkilib gedir, lakin Koroğlu Çənlibeli görə bilmir, qəlbini qəm-qüssə bürüyür, onu şübhələr sıxır. Nəhayət, günəş çıxıb dağlara yayılandan sonra Çənlibelin qarlı zirvələri də görünür. Lakin Koroğlunu onların uzaqlığı və dəlilərin görünməməsi həddindən artıq qüssələndirir. O, öz ruhunun səmimi fəryadını ifadə edir. Qısası, bu özünün mənəvi əhval-ruhiyyəsinin fəryadıdır ki, müasir oxucuda da emosiyalı duyğular oyadır və bu narahatlığın həmfikiri olur.

Bu insani hissin cazibəsini yaratmaqdan bir fakt da diqqətə layiqdir – Koroğlu gürcü bağını və orada yetişən narı xatırlayır ki, bu da, hisslərdən, hər şeydən öncə reallıqdan xəbər verir və ikincisi də, gürcü bağının belə yada salınması təsadüfi deyildir, Koroğlunun fəaliyyətini gürcü gerçəkliyi ilə də əlaqələndirir, bizi bir daha həqiqətdə əmin edir ki, bu dastanlar Azərbaycanda düzülüb-qoşulub.

Bu boyda fiziki zahiri görünüşü ilə və ağlın dolğunluğu ilə fərqlənən daha bir xanımın obrazı yaradılır.

Və daha bir cizgi də özünü bürüzə verir – Azərbaycan ənənəsinə uyğun olaraq, atanın razılığı olmadan kürəkən toyda görünə bilməz.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 İYUL
2023-CÜ İL
№ 013 (184)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## HÜQUQŞÜNAS: “ALİMENT ÖDƏMƏYİ İLLƏR SONRA DA TƏLƏB ETMƏK OLAR VƏ ƏGƏR ATA ÖDƏMİRSƏ BUNU NƏNƏ VƏ BABADAN DA TƏLƏB ETMƏK OLAR...”



**Professor Tamar Kerdzaia “Sabahın xeyir, Gürcüstan!” verilişində alimentin ödənməsi şərtləri haqqında danışıb və ananın kimdən aliment ödəməyi tələb edə biləcəyini ətraflı izah edib:**

– Uşağın layiqli şəkildə tərbiyəsinin qayğısına qalmaq hər iki valideynin öhdəliyidir. Layiqli tərbiyə dedikdə çox şey nəzərdə tutulur – yemək, geyim, təhsil, eləcə də onun istirahəti və digər ehtiyacları. Təhsil, ola bilsin, öz dəyəri ilə çox fərqlənsin. İctimai məktəblərdə təhsil pulsuzdur, özəl məktəblər də var. Orada təhsil haqqı 20 min dollar da ola bilər. Aliment haqqında danışanda iki faktoru nəzərə almaq mühümdür: aliment ödəyənin maddi vəziyyəti, onun gəliri, əməkhaqqı və aliment alanın maddi vəziyyəti. Həmçinin aliment ödəyən şəxsin öhdəliyində olan şəxslərin sayı da nəzərə alınmalıdır. Ola bilsin, onun başqa övladları, əmək qabiliyyəti olmayan valideynləri var və bu da vacibdir, proporsional olaraq hesablanır. Digər valideynə gəldikdə, bir halda ki, uşağı təmin etmək hər iki valideynin öhdəliyidir, aliment hesablanan zaman ananın əməkhaqqı da hesablanır. Məsələn, əgər valideynlərin əməkhaqqı bərabər – 2000-2000 laridirsə və ana məhkəmədə hər ay uşağa 800 lari lazım olduğunu deyirsə, o zaman məhkəmə digər valideynin əməkhaqqını da hesablayacaq, ataya 800 lari deyil, 400 lari öhdəlik təyin edəcək. Amma əgər ana işləmirsə, bu zaman bütün yük ataya düşür. Yaxud ananın əməkhaqqı atadan azdırsa məbləğ müvafiq proporsionallığa uyğun bölünür.

İstirahət və digər xərclər aliment tələbində qeyd olunmalıdır. Bu, sonra aylıq aliment formasında bölünür. Aliment yolu ilə özəl məktəb, dayə, istirahət və ya başqa tip xərclər tələb etmək olar. Ancaq qeyd etdiyim kimi, iki faktor – atanın, eləcə də ananın maddi vəziyyəti nəzərə alınmalıdır.

**– Ananın illər əvvəl atadan tələb etdiyi aliment uşağa kifayət etmirsə?**

– Təhsil haqqından başlayaraq istirahət, qida qiymətlərinə qədər hər şey dəyişir. Çox valideynlər hesab edirlər ki, təyin edilmiş aliment 18 yaşa qədər dəyişməz qalır. Bu belə deyil. İki faktoru nəzərə almaqla alimentin miqdarının dəyişməsini tələb edə bilərik: birinci, uşağın ehtiyaclarıdır. Eləcə də aliment ödəyənin maddi vəziyyəti də dəyişə bilər. Məsələn, aliment tələb edən dövrdə digər valideynin gəliri yox idi, yaxud da əməkhaqqı az idi. Təəssüf ki, hərdən elə olur, insanlar öz gəlirlərini gizlədirlər ki, aliment az təyin edilsin. Əgər aliment ödəyənin gəliri artarsa, məbləğin artırılması tələbi də mümkündür. Əgər maddi vəziyyəti pisləşərsə, məntiqli şəkildə, aliment ödəyən tələb olunmuş məbləğin azaldılmasını tələb edə bilər. Ancaq minimum mövcud hədd müəyyən edilib, aliment ödəyən bu məbləğdən aşağı enə bilməz. Məbləğin azaldılması üçün aliment ödəyənin çox ciddi arqumentləri olmalıdır ki, məhkəmə onu nəzərə alsın.

**– Əgər aliment ödəyən Gürcüstanda deyilsə, belə halda kim məsuliyyət daşıyır?**

– İlk və ən mühüm olan odur ki, əgər şəxs aliment ödəmək öhdəliyi daşıyırsa, üzərindən 15 il də ötmüş olsa, icra etmək həmişə mümkündür. Hətta uşaq yetkinlik yaşına çatmış olsa belə mümkündür. Şərti olaraq, əgər ata, ümumiyyətlə, “yoxa çıxıbsa”, ödəmədən çəkinibsə, Gürcüstanda olmayıbsa, illər ötüb və qayıdıbsa, yaxud hansı ölkədə olduğunu öyrəniriksə, həmin ölkənin məhkəməsinə müraciət edə bilərik. Belə halda keçmiş zaman ərzində, ona aliment öhdəliyi qoyulduğu və ödəmədiyi halda, istədiyimiz zaman tam məbləği tələb edə bilərik. Buna görə də məhkəməyə müraciət etməyin həmişə mənası var.

**– Bəs nənə və babadan aliment tələb etmək mümkündürmü?**

– Bunu çox adam bilmir – bəli, nənə və babaya aliment öhdəliyi vermək mümkündür. Bunun üçün iki vəziyyət olmalıdır: valideyne müvafiq vəsaiti olmadığı, yaxud əmək qabiliyyətini itirdiyi və övladına maddi yardım göstərə bilmədiyi halda; digər tərəfdən, əgər nənə və babanın müvafiq vəsaiti varsa, bu, mümkündür. Belə hallarda onlardan aliment tələb etmək olar.

**– Analıq və atalıq olan hallarda aliment məsələsi necə olur?**

– Yetkinlik yaşına çatmamış şəxs konkret olaraq qeyd olunan evdə yaşayırsa, atalıq və analığın ögey övladla bağlı öhdəlikləri yaranır. Əgər valideynin uşağını təmin etmək üçün müvafiq vəsaiti yoxdursa, ola bilsin, aliment analıq və atalıqdan tələb olunsun.

*Mənbə: mshoblebi.ge*
*Gürcü dilindən tərcümə: A.Əliyeva*

## ETNİK AZLIQLARI TƏMSİL EDƏN GƏNCLƏRİN BİRİNCİ FORUMU KEÇİRİLİB



İyulun 13-də Gürcüstanda etnik azlıqları təmsil edən gənclərin Birinci forumu keçirilib.

BMT-nin və Avropa İttifaqının Gürcüstandakı nümayəndəliklərinin birgə təşkilatçılığı ilə keçirilən forumda müxtəlif millətlərdən olan xeyli sayda gənc iştirak edib.

Forumda əsasən etnik azlıqların gənc nümayəndələrinin Gürcüstanın ictimai-siyasi, iqtisadi, mədəni həyatındakı rolu barədə müzakirələr aparılıb. Eyni zamanda, bu gənclərin Gürcüstanın Avropaya və NATO-ya inteqrasiyasına verdikləri və verə biləcəkləri töhfələr, eləcə də, etnik azlıqların təhsili, dövlət strukturlarında və özəl sektorda işlə təminatı barədə məsələlər müzakirə olunub.

Çıxışlarda Gürcüstanda yaşayan etnik azlıqların təhsil, səhiyyə, dövlət və özəl sektorda işlə təminatı sahələrində hələ də problemlərin yaşandığı qeyd olunub.

Sonra forum panel iclaslarda işini davam etdirib.

Birinci panel iclasda “Qırmızı Körpü” İctimai Birliyinin və “Yeni Düşüncə İnstitutunun” fəaliyyətləri barədə hesabatlar dinlənilib. Hər iki təşkilatın gələcək planları və hazırladıqları layihələr barədə müzakirələr aparılıb.

İkinci paneldə isə Kvemo Kartli bölgəsindən, Abxaziya və Cavaxetiyadan olan fəal azərbaycanlı, abxaz və erməni gənclər çıxışlar edib, təcrübələrini bölüşüblər.

## GÜRCÜSTANIN BEYNƏLXALQ VALYUTA EHTİYATLARI ARTIB




Gürcüstan Milli Bankının yaydığı məlumata əsasən, 2023-cü ilin birinci yarısında Gürcüstanın beynəlxalq valyuta ehtiyatları artaraq 5 066,7 milyon ABŞ dolları təşkil edib.

Məlumata görə, iyun ayında ölkənin beynəlxalq valyuta ehtiyatları 65,3 milyon dollar, ilin əvvəlindən isə 165,2 milyon dollar artıb. Analitiklərin fikrincə, ehtiyatların həcminin dəyişməsi hökumətin və bank sektorunun valyuta əməliyyatları, həmçinin Gürcüstan Milli Bankının valyuta alması ilə bağlıdır.

Gürcüstanın xarici valyutaya çevrilən beynəlxalq ehtiyatlar Milli Bankın ehtiyatlarının əsas hissəsini təşkil edir və 4,6 milyard dollar təşkil edir.

Valyuta ehtiyatlarının strukturunda digər aktivlərin dəyəri 658,6 min dollardır.

Gürcüstan Milli Bankı qızılla vəsait saxlamır.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 20 FAİZDƏN ÇOX ARTIB

Gürcüstanın Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2023-cü ilin birinci yarısında Gürcüstanın xarici ticarət dövriyyəsi 10,2 milyard ABŞ dollar təşkil edib. Bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 20,1 faiz çoxdur.

Məlumata görə, hesabat dövründə Gürcüstanın xarici ticarətində ixracın həcmi ötən ilin müvafiq dövrünə nisbətən 19,2 faiz artaraq 3,050 milyard dollara çatıb. İdxal isə 20,4 faiz artıb və 7,215 milyard dollar təşkil edib.

Beləliklə, ölkənin xarici ticarətində altı ay ərzində 4,165 milyard dollar həcmində mənfi saldo yaranıb.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.